**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Dövlət investisiyaları şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1.Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra – Nazirlik) Aparatının struktur bölməsi olan Dövlət investisiyaları şöbəsi (bundan sonra – şöbə) dövlət investisiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi, dövlət investisiyalarının idarə olunması, habelə bu sahədə normativ hüquqi tənzimləmələrin icrasında iştirak edən əsas struktur bölmədir. Şöbə dövlət investisiya layihələrinin qiymətləndirilməsi, prioritetləşdirilməsi və seçilməsi, onların Dövlət İnvestisiya Proqramına daxil edilməsi üzrə prosedurların təşkili və əlaqələndirilməsini həyata keçirir, həmçinin dövlət investisiyalarının səmərəliliyinin, fiskal davamlılığının və strateji inkişaf prioritetlərinə uyğunluğunun təmin edilməsi məqsədilə müvafiq normativ hüquqi aktların icrasında iştirak edir və aidiyyəti dövlət qurumları ilə koordinasiyanı təmin edir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2024-cü il tarixli 257 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"nı (bundan sonra – Qaydalar), Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra – nazir) əmr və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra – Nazirliyin strukturları), təsisçisi olduğu,

səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. dövlət investisiyaları sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

2.1.2. dövlət investisiyalarının ortamüddətli planlaşdırılmasını, o cümlədən Dövlət İnvestisiya Proqramının hazırlanmasını və əlaqələndirilməsini təmin edir;

2.1.3. dövlət investisiya layihələrinin qiymətləndirilməsi və prioritetləşdirilməsi üzrə metodoloji çərçivənin hazırlanmasını və tətbiqini həyata keçirir;

2.1.4. dövlət investisiyalarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi və bu sahədə institusional potensialın gücləndirilməsi istiqamətində tədbirlər görür;

2.1.5. dövlət investisiya layihələrinin strateji hədəflərə uyğunluğunun təhlili və investisiya xərclərinin səmərəliliyinin artırılması sahəsində fəaliyyət göstərir;

2.1.6. dövlət investisiyaları sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi sahəsində fəaliyyət göstərir;

2.1.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbə aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. dövlət investisiya siyasətinin əsas prioritetləri və istiqamətləri üzrə təkliflərin hazırlanması, həmçinin sosial-iqtisadi inkişaf strategiyaları və dövlət proqramları çərçivəsində investisiya prioritetlərinin müəyyənləşdirilməsi;

3.1.2. Dövlət İnvestisiya Proqramının tərtib olunması məqsədilə sifarişçi təşkilatlara təlimat məktubları göndərmək;

3.1.3. sifarişçi təşkilatlardan Qaydalara uyğun şəkildə daxil olan investisiya təklifləri və digər zəruri məlumatlar əsasında hər ortamüddətli dövr üçün dövlət investisiya xərcləri

hesabına dövlət büdcəsindən tələb olunacaq vəsaitin həcmi barədə aidiyyəti üzrə sorğu göndərmək;

3.1.4. ölkənin ortamüddətli sosial-iqtisadi inkişaf konsepsiyaları, strategiyaları və dövlət proqramları, habelə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi prioritetlər (layihələr) nəzərə alınmaqla, dövlət büdcəsində dövlət investisiya xərclərinin ilkin ortamüddətli göstəriciləri əsasında Dövlət İnvestisiya Proqramının ilkin layihəsinin, dəqiqləşdirilmiş məbləğ əsasında isə Dövlət İnvestisiya Proqramının dəqiqləşdirilmiş layihəsinin hazırlanmasını təmin etmək, həmçinin Dövlət İnvestisiya Proqramının müvafiq istiqamətlər üzrə bölgüsünü aidiyyəti üzrə təqdim etmək;

3.1.5. sifarişçi təşkilatlardan daxil olan layihə konsepsiya sənədlərinin qiymətləndirilməsini həyata keçirmək və qiymətləndirmə nəticəsində sifarişçi təşkilatlara kiçik və orta investisiya layihələri üzrə yekun rəy, iri investisiya layihələri üzrə isə ilkin rəy təqdim etmək, eləcə də layihə konsepsiya sənədi əsasında müsbət rəy verilmiş investisiya layihələrini prioritet dövlət investisiya layihələrinin siyahısına daxil etmək;

3.1.6. iri investisiya layihələri üzrə ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırma sənədlərini Qaydalara uyğun şəkildə qiymətləndirmək və müvafiq olaraq aralıq və yekun rəy vermək;

3.1.7. ehtimal olunan ümumi dəyəri 30,0 milyon manatdan yuxarı olan investisiya layihələrinin layihə konsepsiya sənədlərində sifarişçi təşkilatlar tərəfindən layihələrin icrası dövlət-özəl tərəfdaşlığı çərçivəsində mümkün hesab edildikdə, həmçinin layihə konsepsiya sənədləri üzrə layihələrinin şöbə tərəfindən qiymətləndirilməsi aparılan zaman dövlət-özəl tərəfdaşlığı çərçivəsində həmin layihələrin icrasının mümkünlüyü qənaətinə gəlindikdə, "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2024-cü il tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət-özəl tərəfdaşlığı Qaydaları"na uyğun olaraq müvafiq qiymətləndirmənin aparılması üçün layihələrin siyahısını layihə konsepsiya sənədləri ilə birlikdə nazirliyin aidiyyəti şöbəsinə təqdim etmək;

3.1.8. müsbət yekun rəy alan yeni investisiya layihələri üzrə əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında həmin investisiya layihələrinin reytinqini müəyyən etmək və bunun əsasında prioritetləşdirmə prosedurunu aparmaq;

3.1.9. növbəti ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü layihəsinə daxil edilməsi məqsədilə investisiya layihələrinin reytinqinin müəyyənləşdirilməsi və bunun nəticəsində prioritetləşdirilməsi prosedurundan sonra investisiya layihələrinin icraya tam hazırlığının müəyyən edilməsi üçün icradan əvvəlki son nəzarət prosedurunu aparmaq;

3.1.10. Dövlət İnvestisiya Proqramına daxil edilmiş keçid investisiya layihələrinin icra vəziyyəti və yeni investisiya layihələrinin qiymətləndirilməsi nəticələri nəzərə alınmaqla və Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Dövlət İnvestisiya Proqramına daxil edilmiş layihələr, o cümlədən müdafiə, təhlükəsizlik və hərbi təyinatlı investisiya layihələri də daxil olmaqla, növbəti ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünün layihəsini və sözügedən bölgünün təsdiqini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin sərəncamı layihəsini hazırlamaq və rəhbərliyə təqdim etmək;

3.1.11. dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü təsdiq edildikdən sonra sözügedən bölgüdə əks olunan layihələrin maliyyələşmə və icra vəziyyəti barədə hər ay rəhbərliyə analitik arayış və hesabatlar təqdim etmək;

3.1.12. cari ilin təsdiq edilmiş dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsündə əks olunmuş layihələrin icra vəziyyətindən asılı olaraq sözügedən bölgüyə əlavə və dəyişikliklərin edilməsinə zərurət yaranarsa, həmin əlavə və dəyişikliyi nəzərdə tutan müvafiq məlumatları və Azərbaycan Respublikası Prezidentinin sərəncamı layihəsini hazırlamaq;

3.1.13. cari ilin dövlət büdcəsində dəyişiklik edilməsi ilə əlaqədar dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün əlavə vəsait nəzərdə tutularsa, cari ilin təsdiq edilmiş dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsündə müvafiq dəyişikliklər edilməsi məqsədilə zəruri tədbirlər görmək;

3.1.14. nəzərdə tutulmuş hallarda Dövlət İnvestisiya Proqramının rasionallaşdırılmasının həyata keçirilməsi üçün işçi qrupun yaradılması məqsədilə əmr layihəsi hazırlayıb təsdiq üçün rəhbərliyə təqdim etmək və işçi qrupun rasionallaşdırma ilə əlaqədar fəaliyyəti tamamlandıqdan sonra onun nəticələri və hazırlanmış təkliflər barədə rəhbərliyə hesabat təqdim etmək;

3.1.15. sifarişçi təşkilatlarla koordinasiyanı təmin etmək, həmçinin investisiya layihələrinin tərtibi və qiymətləndirilməsi mərhələlərinin düzgün aparılmasına dəstək vermək;

3.1.16. tələb olunduqda dövlət investisiya layihələrinin maliyyələşdirilməsi üçün əlavə maliyyə mənbələrinin cəlb olunmasına dair təkliflər vermək;

3.1.17. dövlət investisiyaları sahəsində fəaliyyəti tənzimləyən qanunvericilik aktlarını təhlil etmək, onların təkmilləşdirilməsinə dair təkliflər vermək, habelə qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, digər dövlət orqanları tərəfindən hazırlanmış qanunvericilik aktlarının layihələrinə dair rəy və təkliflər vermək;

3.1.18. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.19. fəaliyyət istiqamətləri üzrə Nazirliyin inkişaf konsepsiyasının (strateji planının), fəaliyyəti ilə bağlı digər strateji proqramların həyata keçirilməsində iştirak etmək;

3.1.20. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.21. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.22. fəaliyyət istiqamətləri üzrə Nazirliyin strukturları tərəfindən hazırlanmış qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin layihələrinə dair təkliflər verir;

3.1.23. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

## 4. Şöbənin hüquqları

4.1. Şöbə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi məqsədilə aşağıdakı hüquqlara malikdir:

4.1.1. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin strukturlarına, habelə sifarişçi təşkilatlara müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.2. dövlət investisiya layihələrinin hazırlanması, qiymətləndirilməsi və prioritetləşdirilməsi məqsədilə sifarişçi təşkilatlara metodiki göstərişlər, təlimat məktubları göndərmək və izahatlar vermək;

4.1.3. daxil olan investisiya layihələrinin layihə konsepsiya sənədlərinə, texniki-iqtisadi əsaslandırmalarına və digər layihə sənədlərinə dair rəy vermək, əlavə məlumat və düzəlişlərin təqdim edilməsini tələb etmək;

4.1.4. dövlət investisiya layihələrinin qiymətləndirilməsi və prioritetləşdirilməsi prosesində müvafiq meyarlar tətbiq etmək, layihələrin reytinqini müəyyənləşdirmək və prioritet dövlət investisiya layihələrinin siyahısını formalaşdırmaq;

4.1.5. Dövlət İnvestisiya Proqramının hazırlanması, dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü, icrasının təhlili və rasionallaşdırılması məqsədilə sifarişçi təşkilatlarla müzakirələr aparmaq;

4.1.6. dövlət investisiya layihələrinin icra vəziyyətinin təhlili məqsədilə zərurət yarandığı halda aidiyyəti struktur bölmə ilə birlikdə monitorinqlərin aparılmasında iştirak etmək, aşkar

edilmiş nöqsanlar və risklər barədə rəhbərliyə məlumat vermək və müvafiq təkliflər irəli sürmək;

4.1.7. zərurət yarandığı təqdirdə investisiya layihələrinin qiymətləndirilməsinin aparılması üçün müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada işə cəlb etmək;

4.1.8. dövlət investisiya layihələrinin maliyyələşdirilməsi üçün alternativ və əlavə maliyyə mənbələrinin, o cümlədən dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi ilə bağlı təkliflər vermək;

4.1.9. dövlət investisiyaları sahəsində beynəlxalq təcrübəni öyrənmək, bu sahədə beynəlxalq təşkilatlar və xarici tərəfdaşlarla əməkdaşlıqda iştirak etmək;

4.1.10. dövlət investisiyaları sahəsində normativ-hüquqi aktların, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək, digər qurumlar tərəfindən hazırlanmış layihələrə rəy və təkliflər vermək;

4.1.11. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə Nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz.

Şöbənin strukturuna Dövlət investisiya siyasəti və proqramları sektoru, İnfrastruktur yönümlü dövlət investisiya layihələri sektoru və Sosial yönümlü dövlət investisiya layihələri sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbənin qarşısına qoyulmuş vəzifələrin icrasına və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən on(lar)a həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır(lar).

Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini (müavinlərindən biri) və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra, xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilatisərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

**6.1. Dövlət investisiya siyasəti və proqramları sektorunun vəzifələri aşağıdakılardır:**

6.1.1. dövlət investisiyalarının ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə və strateji sənədlərə uyğunluğunu təhlil etmək;

6.1.2. hər ortamüddətli dövr üçün dövlət büdcəsində dövlət investisiya xərcləri üçün tələb olunan vəsaitin həcminin müəyyən edilməsi məqsədilə sifarişçi təşkilatlara təlimat məktubları göndərmək;

6.1.3. hər il fevralın 20-dək sifarişçi təşkilatlar tərəfindən təqdim edilən ilkin investisiya təkliflərini qəbul etmək, təhlil etmək və ümumiləşdirmək;

6.1.4. Dövlət İnvestisiya Proqramının layihəsinin hazırlanması;

6.1.5. sifarişçi təşkilatların investisiya təkliflərinə əsasən, hər ortamüddətli dövr üçün dövlət büdcəsində dövlət investisiya xərcləri üçün tələb olunan vəsaitin həcmi barədə cari il martın 1-dək Maliyyə Nazirliyinə sorğu göndərilməsini təmin etmək;

6.1.6. keçid və yeni investisiya layihələri, habelə sifarişçi təşkilatların investisiya proqramları əsasında ortamüddətli dövr üçün Dövlət İnvestisiya Proqramının müvafiq istiqamətlər üzrə ilkin layihəsini cari il aprelin 5-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına, aprelin 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, müvafiq istiqamətlər üzrə dəqiqləşdirilmiş layihəsini dövlət büdcəsinə uyğunlaşdırmaq məqsədilə avqustun 1-dək Maliyyə Nazirliyinə, növbəti il üçün dövlət büdcəsinin layihəsinə dair rəyin hazırlanması məqsədilə sentyabrın 15-dək Azərbaycan Respublikasının Hesablama Palatasına göndərilməsini təmin etmək;

6.1.7. hər il olmaqla, cari ilin dekabrın 25-dək Dövlət İnvestisiya Proqramına daxil edilmiş keçid investisiya layihələrinin icra vəziyyəti və yeni investisiya layihələrinin qiymətləndirilməsi nəticələri nəzərə alınmaqla və Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Dövlət İnvestisiya Proqramına daxil edilmiş layihələr, o cümlədən müdafiə, təhlükəsizlik və hərbi təyinatlı investisiya layihələri də daxil olmaqla, növbəti ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünün layihəsini hazırlamaq və təsdiq edilmək üçün növbəti ilin yanvarın 10-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi məqsədilə Şöbə rəhbərliyi vasitəsilə rəhbərliyə təqdim etmək;

6.1.8. Maliyyə Nazirliyindən daxil olmuş məlumatlar əsasında dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərə tutulan vəsaitin və işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin bölgülərinin maliyyələşdirilməsinin icra vəziyyəti ilə bağlı hesabat hazırlamaq və Şöbə rəhbərliyi vasitəsilə rəhbərliyə təqdim etmək;

6.1.9. investisiya siyasətinə dair normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

6.1.10. dövlət investisiya layihələri üzrə sifarişçi təşkilatlardan daxil olan layihə-konsepsiya sənədinin qiymətləndirilməsini həyata keçirmək və qiymətləndirmə nəticəsində sifarişçi təşkilatlara kiçik və orta investisiya layihələri üzrə yekun rəy, iri investisiya layihələri üzrə isə ilkin rəy təqdim etmək;

6.1.11. layihə konsepsiya sənədləri əsasında müsbət rəy verilmiş investisiya layihələrinin prioritet dövlət investisiya layihələrinin siyahısına daxil edilməsi istiqamətində tədbirlər görmək;

6.1.12. sifarişçi təşkilatlardan daxil olan dövlət investisiya layihələri üzrə ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırmalar üzrə qiymətləndirmələr aparmaq və müvafiq rəylər vermək;

6.1.13. sektorun fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlardan, eləcə də Nazirliyin strukturlarından daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.1.14. beynəlxalq təcrübə və strateji sənədlər əsasında dövlət investisiya siyasətinin təkmilləşdirilməsi üzrə təkliflər hazırlamaq;

6.1.15. sifarişçi təşkilatlarla qarşılıqlı fəaliyyətin təşkili, sənədlərin koordinasiyası və müzakirələrin aparılmasında iştirak etmək;

6.1.16. rəhbərliyin tapşırığı ilə investisiya layihələri üzrə təhlillər, analitik arayışlar və məlumat cədvəlləri hazırlamaq;

6.1.17. şöbə üzrə müəyyən edilmiş iş planına uyğun olaraq sektorun fəaliyyətinin vaxtında və səmərəli yerinə yetirilməsini təmin etmək, bu barədə hesabatlar hazırlamaq və şöbə rəhbərliyinə təqdim etmək.

**6.2. İnfrastruktur yönümlü dövlət investisiya layihələri sektorunun vəzifələri aşağıdakılardır:**

6.2.1. infrastruktur yönümlü dövlət investisiya layihələri üzrə sifarişçi təşkilatlardan daxil olan layihə-konsepsiya sənədinin qiymətləndirilməsini həyata keçirmək və qiymətləndirmə nəticəsində sifarişçi təşkilatlara kiçik və orta investisiya layihələri üzrə yekun rəy, iri investisiya layihələri üzrə isə ilkin rəy təqdim etmək;

6.2.2. layihə konsepsiya sənədləri əsasında müsbət rəy verilmiş infrastruktur yönümlü investisiya layihələrinin prioritet dövlət investisiya layihələrinin siyahısına daxil edilməsi istiqamətində tədbirlər görmək;

6.2.3. sifarişçi təşkilatlardan daxil olan infrastruktur yönümlü dövlət investisiya layihələri üzrə ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırmalar üzrə qiymətləndirmələr aparmaq və müvafiq rəylər vermək;

6.2.4. növbəti büdcə ili və sonrakı üç il üçün Dövlət İnvestisiya Proqramlarının ilkin layihəsinin və dəqiqləşdirilmiş layihəsinin hazırlanmasında iştirak etmək;

6.2.5. investisiya layihələrinin reytinqinin müəyyənləşdirilməsində və prioritetləşdirilməsində iştirak etmək;

6.2.6. infrastruktur yönümlü dövlət investisiya layihələri üzrə icra vəziyyətinin təhlili məqsədilə aidiyyəti struktur bölmə ilə birlikdə monitorinqlərin aparılmasında iştirak etmək;

6.2.7. dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünün hazırlanmasında iştirak etmək;

6.2.8. dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü təsdiq edildikdən sonra həmin bölgüdə dürüstləşmələrin

aparılması məqsədilə hüquqi aktların və müvafiq əsaslandırma sənədlərinin hazırlanmasında iştirak etmək;

6.2.9. dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsündə bir sıra sifarişçi təşkilatlara bir sətirlə ayrılmış vəsaitlərin layihələr üzrə bölgüsünü razılaşdırmaq;

6.2.10. rəhbərliyin tapşırığı ilə investisiya layihələri üzrə təhlillər, analitik arayışlar və məlumat cədvəlləri hazırlamaq;

6.2.11. şöbə üzrə müəyyən edilmiş iş planına uyğun olaraq sektorun fəaliyyətinin vaxtında və səmərəli yerinə yetirilməsini təmin etmək, bu barədə hesabatlar hazırlamaq və şöbə rəhbərliyinə təqdim etmək;

6.2.12. infrastruktur yönümlü investisiya layihələri üzrə dəqiqləşmələrin aparılması məqsədilə həmin layihələrin sifarişçisi olan təşkilatlarla sahəvi koordinasiyanı həyata keçirmək;

6.2.13. sektorun fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlardan, eləcə də Nazirliyin strukturlarından daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.2.14. dövlət sirri təşkil edən investisiya layihələri üzrə yazışmalarda “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununun, eyni zamanda dövlət sirri sahəsində Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə əməl etmək;

6.2.15. dövlət investisiya layihələrinin idarə edilməsi sahəsində qanunvericilik aktlarının qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması işində iştirak etmək və bu sahədəki normativ sənədlərin layihələrinə dair rəylər hazırlamaq.

**6.3. Sosial yönümlü dövlət investisiya layihələri sektorunun vəzifələri aşağıdakılardır:**

6.3.1. sosial yönümlü dövlət investisiya layihələri üzrə sifarişçi təşkilatlardan daxil olan layihə-konsepsiya sənədinin qiymətləndirilməsini həyata keçirmək və qiymətləndirmə nəticəsində sifarişçi təşkilatlara kiçik və orta investisiya layihələri üzrə yekun rəy, iri investisiya layihələri üzrə isə ilkin rəy təqdim etmək;

6.3.2. layihə konsepsiya sənədləri əsasında müsbət rəy verilmiş sosial yönümlü investisiya layihələrinin prioritet dövlət investisiya layihələrinin siyahısına daxil edilməsi istiqamətində tədbirlər görmək;

6.3.3. sifarişçi təşkilatlardan daxil olan sosial yönümlü dövlət investisiya layihələri üzrə ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırmalar üzrə qiymətləndirmələr aparmaq və müvafiq rəylər vermək;

6.3.4. növbəti büdcə ili və sonrakı üç il üçün Dövlət İnvestisiya Proqramlarının ilkin layihəsinin və dəqiqləşdirilmiş layihəsinin hazırlanmasında iştirak etmək;

6.3.5. investisiya layihələrinin reytinqinin müəyyənləşdirilməsində və prioritetləşdirilməsində iştirak etmək;

6.3.6. sosial yönümlü dövlət investisiya layihələri üzrə icra vəziyyətinin təhlili məqsədilə aidiyyəti struktur bölmə ilə birlikdə monitorinqlərin aparılmasında iştirak etmək, aşkar edilmiş nöqsanlar və risklər barədə rəhbərliyə məlumat vermək və müvafiq təkliflər irəli sürmək;

6.3.7. dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsündə iştirak etmək;

6.3.8. dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulmuş vəsaitin bölgüsü təsdiq edildikdən sonra həmin bölgüdə dürüstləşmələrin aparılması məqsədilə qanunvericilik aktlarının və müvafiq əsaslandırma sənədlərinin hazırlanmasında iştirak etmək;

6.3.9. dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsündə təhsil, səhiyyə, sosial xidmətlər, mədəniyyət və digər sosial sahələr üzrə bir sətirlə ayrılmış vəsaitlərin layihələr üzrə bölgüsünü razılaşdırmaq;

6.3.10. rəhbərliyin tapşırığı ilə investisiya layihələri üzrə təhlillər, analitik arayışlar və məlumat cədvəlləri hazırlamaq;

6.3.11. şöbə üzrə müəyyən edilmiş iş planına uyğun olaraq sektorun fəaliyyətinin vaxtında və səmərəli yerinə yetirilməsini təmin etmək, bu barədə hesabatlar hazırlamaq və şöbə rəhbərliyinə təqdim etmək;

6.3.12. sosial yönümlü investisiya layihələri üzrə dəqiqləşmələrin aparılması məqsədilə həmin layihələrin sifarişçisi olan təşkilatlarla sahəvi koordinasiyanı həyata keçirmək;

6.3.13. sektorun fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlardan, eləcə də Nazirliyin strukturlarından daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

6.3.14. dövlət investisiya layihələrinin idarə edilməsi sahəsində qanunvericilik aktlarının qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması işində iştirak etmək və bu sahədəki normativ sənədlərin layihələrinə dair rəylər hazırlamaq.